**İ.C.CƏLİLOVA**
*e-mail: ilahe.celilova1981@mail.ru*
**:https://orcid.org/0009-0008-5954-6012**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.4.442**

# MÜASİR DİDAKTİKADA TƏLİM PRİNSİPLƏRİNİN TƏSNİFİ, SİSTEMLƏŞDİRİLMƏSİ VƏ İFADƏSİ İLƏ BAĞLI İDEYALAR

***Xülasə.*** *Məqalədə müasir didaktikada təlim prinsiplərinin təsnifi, sistemləşdirilməsi və ifadəsi ilə bağlı problemlər araşdırılmışdır. Müəyyənləşdirilir ki, Azərbaycanda pedaqoji elmin inkişafı milli ictimai-pedaqoji düşüncənin coğrafi sərhədlərindən, onun dünya pedaqogikası və mədəniyyəti ilə qarşılıqlı əlaqələrinin təsirindən bilavasitə asılı olmuşdur və bu əlaqələr onun inkişafına güclü təsir göstərmişdir.*
*Pedaqogika elminin inkişafını sosial-siyasi, iqtisadi, mədəni-mənəvi zəmin şərtləndirsə də, o, milli-pedaqoji fikrimizdə tarixi düşüncənin yaranma və inkişaf ənənələri ilə bağlıdır. Həmin ənənələr öz kökləri etibarilə, ilk pedaqoji təsəvvürlərin təşəkkül tapdığı, xalqımızın qədim adət və ənənələrinə, mərasim və ayinlərinə, əyləncə və oyunlarına, şifahi xalq ədəbiyyatına, ümumtürk düşüncə tərzinə gedib çıxır.*

***Açar sözlər:*** *didaktika, təlim, təhsil, təlim prinsipləri, didaktik tədqiqatlar*

Təlim və təhsil prosesinin mahiyyətini, məzmununu, prinsiplərini, metodlarını və təşkilat formalarını öyrənən didaktika elmi tədqiq etdiyimiz mərhələdə özünəməxsus inkişaf yolu keçmiş, Azərbaycan pedaqoqları nəyi (məzmun), kimə (yaş dərəcəsi), harada (təşkilat forması), nə üçün (məqsəd), nələrin köməyi ilə (vasitələr), necə (hansı metod və priyomların köməyi ilə) öyrətmək məsələləri ilə bağlı araşdırmalar aparmış, ictimai-iqtisadi inkişafın tələblərini öyrənməklə, bu tələblərə uyğun təhsilin hər mərhələsinin məqsəd və vəzifələrini konkretləşdirmiş, həmin məqsəd və vəzifələri nəzərə alaraq təhsilin optimal məzmununu müəyyənləşdirmişlər. Didaktik tədqiqatlarda təlim prosesinin qanunauyğunluqları təhsilin məzmununun şagirdlər tərəfindən səmərəli mənimsənilməsini, onların tərbiyə olunmasını və inkişafını təmin edən yollar və şərtlər də müəyyənləşdirilmişdir.

Keçən əsrin 30-cu illərində məktəb haqqında rəsmi dövlət orqanlarının qəbul etdiyi qərarlar didaktikanın yeni istiqamətdə inkişafını şərtləndirdi. Böyüyən nəslə elmlərin əsaslarını mənimsətmək, kifayət həcmdə ümumtəhsil biliyi vermək məktəbin əsas vəzifəsi hesab olundu. Təlim prosesinin mahiyyəti, prinsipləri, metodları, ümumi və politexnik təhsilin məzmunu, təşkili formaları, müvəffəqiyyətin hesaba alınması və qiymətləndirilməsi kimi metodoloji problemlərin tədqiqinə yeni yanaşmalar meydana gəldi. Buna birdən-birə nail olmaq mümkün olmadı. İlk vaxtlar pedaqoji tədqiqatlarda 1920-ci illərin birinci yarısındakı ümumi vəziyyət bərqərar oldu. A.Əfəndizadə, M.Quliyev, H.Ağalar, H.Əşrəf, C.Cəbrayılbəyli, M.Rəhimli, H.Camalov, A.Musaxanlı, Ə.Məhəmməd, F.Rzabəyli, A.Sübhanverdixanovun didaktikanın mühüm problemləri ilə bağlı yeni məqalələri meydana gəldi. Problemlər həmin dövrün tələbləri səviyyəsində izah edilir, elmin nailiyyətləri nəzərə alınmırdı, hətta bəzi anlayışlar, şərhlər və məfhumlar əvvəlki dövrün ənənələrinə uyğun araşdırılırdı. Bu çox ciddi məsələ idi və böyük narahatlıq doğururdu. Böyüməkdə olan nəslin elmlərin əsaslarına yiyələnməsinə kifayət qədər diqqət yetirilsə də, tədris prosesinə pedaqoji prosesin ümumi planının tərkib hissəsi kimi baxılmadığından yeni məzmunlu nöqsanlar meydana çıxmışdı. Nəzəri biliklərə həddən artıq diqqət yetirildiyindən tətbiqi biliklərə, praktik bacarıq və vərdişlərə kifayət qədər yer ve-

rilmirdi. 30-cu illərin tədris planlarında, proqramlarında və dərsliklərində özünü göstərən bu qüsurlar 40-cı illərdə daha qabarıq nəzərə çarpırdı. Bu səbəbdən də həmin dövrdə pedaqogika elmi təhsilin və təlimin məzmunu nəzəriyyəsinin inkişafına yönəldilmiş, rasional səciyyəli, optimal məzmunlu axtarışlarla məşğul idi. Didaktik kateqoriyaların işlənib hazırlanması ön plana çəkilmişdi. Bu, hər şeydən əvvəl didaktikanın prinsiplərinin müəyyənləşdirilməsində öz əksini tapdı. Didaktlar (M.Muradxanov, M.Mehdizadə, M.Rəhimli, Ə.Hacızadə və b.) və praktiklər təhsilin, o cümlədən təlimin obyektiv qanunlarını meydana çıxarmağa və əməli iş prosesində həmin qanunlardan istifadə etməyin yollarını müəyyənləşdirməyə girişdilər. Tədris prosesinin əsas komponentlərini, təlimin təşkilinin forma və metodlarının seçilməsini, təlimin stimullaşdırılmasını ehtiva edən təlim prinsiplərinin tədqiqi pedaqoji tədqiqatların mərkəzində dayandı. Təlim prinsiplərinin miqdarı, onların sistemi və qruplaşdırılması ilə bağlı ciddi rəy müxtəlifliyi yarandı. Didaktları düşündürən başlıca məsələ, bir tərəfdən təlim prosesində fəaliyyət göstərən obyektiv qanunların aşkara çıxarılması, digər tərəfdən həmin qanunlar əsasında təlimin elə mexanizmlərinin yaradılması idi ki, müəllim bu mexanizmlərdən istifadə edərək təhsilin məzmununun hər bir şagird tərəfindən mənimsənilməsinə nail ola bilsin, obyektiv məzmunu (elmin əsaslarını) subyektiv məzmuna (şagirdin biliyinə) çevirə bilsin. Məktəblinin xüsusiyyətlərini nəzərə almaqla təlimin prinsiplərinin sisteminin yaradılması sahəsində axtarışlar genişləndi. Təlimin qanunauyğunluqlarını əks etdirən təlim prosesinin səmərəli qurulmasına imkan verən ilkin ideyalar, fəaliyyət normaları, əsas tələblər tədqiqat obyektinə çevrildi. Didaktik prinsiplər 1930-cu illər məktəbinin tələblərinə cavab verməli, təlimin məqsədini, məzmununu, vasitələrini, metodlarını və həm də nəticəni özündə əks etdirməli idi. Bu prinsiplərin bəziləri tarix boyu klassik pedaqogikada və həm də Azərbaycan pedaqoji fikrində özünü bu və ya digər dərəcədə göstərmişdi. Klassik pedaqoji irsdə təlim prinsipləri müxtəlif əsaslar üzərində irəli sürülmüşdür. Nəzəri pedaqogikada da təlim prinsipləri tədqiqatçılar tərəfindən eyni cür izah edilməmiş, ona müxtəlif nöqteyi-nəzərlə yanaşılmışdır. 1930-cu illər pedaqoji mətbuatında milli kadrlar təlimin ayrı-ayrı prinsiplərindən, onların tətbiqi əhəmiyyətindən bəhs etsələr də, təlim prinsiplərinin sistemini yarada bilməmiş, əsasən, E.N.Medinskinin təsnifatına istinad etmiş, daha çox həmin bölgünün təbliği ilə məşğul olmuşlar. B.P.Yesipovun, N.V.Qonçarovun Bakıda nəşr olunmuş dərs vəsaitində prinsiplər didaktik tələblərlə əvəz edilmişdi. O dövrün pedaqoji mətbuatında sovet didaktikasının didaktik prinsiplər sisteminə malik olması, empirik qaydalar yığını olmaması, həmin prinsiplərin təlimin obyektiv qanunauyğunluqlarından doğması fikri ön plana çəkilirdi. Bu ideyalar keçən əsrin 30-cu illərin sonu, 40-cı illərin əvvəllərində yazılan əsərlərdə öz əksini tapdı. M.M.Mehdizadə didaktik tədqiqatlara əsaslanaraq təlim prinsiplərini təlimin müvəffəqiyyətlə nəticələnməsini təmin edən əsas tələblər kimi şərh etdi və onları aşağıdakı kimi qruplaşdırdı: 1) təlimin tərbiyəvi xarakteri; 2) biliklərin şüurlu və möhkəm mənimsənilməsi; 3) biliklərin sistematik və ardıcıl verilməsi; 4) təlimdə əyanilik; 5) uşaqların xüsusiyyətlərini və maraqlarını nəzərə almaq [3, s.125]. N.N.Qruzdevin və M.N.Skatkinin təsnifatından çox az fərqlənən bölgü həmin dövr üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu təsnifat Azərbaycan pedaqoji mətbuatında təlim prinsipləri ilə bağlı ilk ümumiləşdirici elmi-nəzəri fikir idi.

Pedaqoji mətbuatda irəli sürülən bir sıra təlim sistemlərinin təhlili göstərir ki, onların hamısı hər şeydən əvvəl, şagirdlərdə elmlərin əsaslarının dərindən mənimsənilməsini formalaşdırmağa istiqamətlənmişdi. Bu məsələnin həlli üçün şagirdlərin bilikləri mənimsəmə prosesində fəallığı və şüurluluğu, biliyin sistematik və ardıcıl dərki zəruri şərt hesab olunurdu. Bununla bərabər, təklif olunan prinsiplər müəllimi həm də tərbiyə məsələlərinin həllinə istiqamətləndirirdi ki, bu da tərbiyəedici təlim prinsipinin formalaşmasında öz əksini tapmışdı.

Didaktik prinsiplərlə bağlı pedaqoji ədəbiyyatda irəli sürülən nəzəri fikirlər prinsiplər sisteminin yaradılmasında uğurlu təşəbbüs idi. Klassik pedaqogikadan və məktəb təcrübəsindən əxz olunan bu prinsiplər tədris işinin nizamlanmasında əhəmiyyətli rol oynadı. 1930-40-cı illərdə didaktik prinsiplərlə bağlı aparılan tədqiqatlarda iki mühüm nöqsan nəzərə çarpır: 1)

tədqiqatlarda prinsiplərin təlimin obyektiv qanunları əsasında irəli sürülməsi zəruriliyi unudulmuş, qanunların meydana çıxarılmasına diqqət yetirilməmişdir; 2) prinsiplər sistem halında deyil, təcrid edilmiş şəkildə, ayrılıqda təqdim olunmuşdur.

1950-ci illərdə pedaqoji prosesin dərk olunması – qanun, qanunauyğunluq, qayda anlayışlarının məzmununun açılması istiqamətində tədqiqatlar genişləndi. Rus pedaqoji mətbuatında qaldırılmış bu məsələ prinsipial əhəmiyyətə malik idi və əlbəttə, müzakirə, yaradıcı mübahisə, canlı diskussiya, obyektiv fikir mübadiləsi üçün ən yaxşı elmi fikir materialı idi. Ancaq pedaqoji prosesin həm ümumi, həm də təlim-tərbiyə üçün spesifik qanun və prinsiplərinin aydınlaşdırılması istiqamətində gedən elmi mübahisələrə nədənsə azərbaycanlı tədqiqatçılar həvəssiz yanaşdılar və 1970-ci illərə kimi bu sahədə elə bir ciddi tədqiqat aparılmadı. Pedaqoji prosesin qanun və qanunauyğunluqlarının 1950-ci illərin sonlarında çap olunan "Pedaqogika" [4, s.74-85] tədris vəsaitində M.Ə.Muradxanov təlim üçün zəruri olan aşağıdakı prinsipləri şərh etdi: 1) əyanilik prinsipi; 2) şüurluluq və fəallıq prinsipi; 3) sistematiklik prinsipi; 4) biliklərin möhkəmləndirilməsi prinsipi; 5) münasiblik prinsipi. Bu bölgü M.M.Mehdizadənin bölgüsündən [3, s.125] o qədər də fərqlənmir. M.M.Mehdizadə biliklərin möhkəmləndirilməsini şagirdlərin şüurlu mənimsəmələri ilə bir yerdə verdiyi halda, M.Ə.Muradxanov bunları ayırır. M.Mehdizadə təlimin tərbiyəvi xarakterini prinsip kimi ilk yerdə verdiyi halda, M.Muradxanov təlimin tərbiyəvi xarakterindən, ümumiyyətlə, prinsip kimi bəhs etmir.

1940-50-ci illərdə nəşr olunan "Pedaqogika"dan dərs vəsaitində fərdi yanaşma təlim prinsipi kimi təqdim edilməsə də, psixologiyada fərdi fərqlərin öyrənilməsi sahəsində əldə edilən uğurlar pedaqogika və məktəb təcrübəsində fərdi yanaşma prinsipinin tətbiq olunmasında xüsusi rol oynadı. Fərdi yanaşma ilk vaxtlar əsasən, didaktik prinsip kimi tətbiq olunurdu. Tədricən bu prinsipin tətbiq sahəsi genişləndi, fərdi yanaşma tərbiyə nəzəriyyəsi və təcrübəsində də mühüm yer tutmağa başladı. Əvvəlki illərdə şagirdlərin fərdi xüsusiyyətləri qabaqcıl müəllimlərin təcrübəsində bu və ya digər dərəcədə nəzərə alınırdısa, 1940-50-ci illərdə pedaqoji tədqiqatlarda təlimdə fərdiləşdirmənin nəzəri əsasları, tətbiqi yolları araşdırılır, müxtəlif məktəblərin təcrübəsində həyata keçirilir, bilik keyfiyyətinin yüksəldilməsi sinif-dərs sisteminin imkanları ilə praktik şəkildə əlaqələndirilirdi. Təlimdə yetirməmə, ikinci ilə qalma təlimin təşkilindəki qüsurlarla, dərsdə frontal işlərin üstünlüyü ilə izah olunurdu. Sinifdə qalma ilə mübarizədə şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması, temperament təlimi və xarakter nəzəriyyəsinə istinad edilməsi ön plana çəkildi. Ötən əsrin 60-cı illərində təlimdə fərdi yanaşma prinsipi pedaqoji ədəbiyyatda genişliyi ilə şərh edildi, S.Axundovun "Əxlaq tərbiyəsində şagirdlərə fərdi yanaşma" (1965) dissertasiyası meydana gəldi. Az sonra Azərbaycan pedaqoji mətbuatında təlimin fərdiləşdirilməsi və diferensiasiyası anlayışları meydana gəldi, bu istiqamətli tədqiqatlar intensivləşdirildi. Bu sahədə ayrı-ayrı müəllimlərin təcrübəsində müəyyən uğurlar əldə edilsə də, onların təcrübəsi nəinki ümumiləşdirilmədi, həm də təlimin fərdiləşdirilməsi və diferensiasiyası sistemli şəkildə araşdırılmadı. Çox keçmədi ki, məktəblərdə fərdiləşdirilmiş təlimdən ancaq söz qaldı. Bu istiqamətli tədqiqatlara diqqət zəiflədi.

1960-70-ci illərdə də təlim prinsiplərinin təsnifatında pedaqogikada vahid elmi fikir formalaşmamış, didaktika təlim prinsiplərinin sistemi haqqında qəti hökm verə bilməmişdir. Tədqiqatlarda daha çox M.Muradxanov [5, s.99] tərəfindən irəli sürülən təlim prinsipləri bu ya digər dərəcədə təqdir və təbliğ olunmuş, məktəb təcrübəsi zəminində izah edilmişdir. 60-cı illərin axırlarından başlayaraq pedaqoji tədqiqatlarda hökm sürən streotiplər dağıdılmış, məktəbi əsasən metodik göstəriş və tövsiyələrlə təmin etməklə öz işini bitmiş hesab edən pedaqogikada tədricən nəzəri-metodoloji problemlərin tədqiqi genişlənmiş, yeni elmi istiqamət formalaşmağa başlamışdır. Ana dili təliminin spesifik qanunlarını tədqiq edən prof. B.Əhmədov təlim prinsipləri ilə bağlı ehkamlara öz münasibətini bildirmiş, pedaqogika mütəxəssislərinin diqqətini qanun problemlərinə cəlb etmişdir. Orijinallığı və elmi tutumu, praktik əhəmiyyəti ilə diqqəti cəlb edən həmin fikir dərhal böyük mübahisəyə səbəb olmuş, yeni-yeni məqalələrin yaranmasına təkan vermiş, deməli, həm də rasional elmi qənaətlərin formalaşmasına şərait yaratmışdır.

1980-ci illərdə cəmiyyətin tələbatına uyğun olaraq məktəb təcrübəsi əsasında təlimin prinsiplərinin daha da təkmilləşdirilməsi davam etdirildi. Təlim vəzifələrinə və ictimai tərəqqi tələblərinə cavab verən, təlim prosesinin ümumi istiqamətini, onun xarakterini, müəllimin öyrədici fəaliyyətinin əsaslarını və şagirdlərin dərketmə fəaliyyətinin idarə edilməsində müəllimin əsas işini müəyyən edən prinsiplərə müxtəlif cəhətdən yanaşıldı. Təlim prinsiplərini "müəllimin təlimin obyektiv qanunlarını dərk etməsi və şagirdlərə həyatı dərk etdirmək prosesində həmin qanunların tələblərinin əldə rəhbər tutulması kimi" [1, s.135] şərh edən B.Əhmədov təlimdə fəaliyyət göstərən prinsipləri üç qrupa böldü: 1) bütün sahələrdə, o cümlədən təlimdə fəaliyyət göstərən prinsiplər (ümumi prinsiplər); 2) pedaqoji prosesin bütün sahələrində, o cümlədən təlimdə fəaliyyət göstərən prinsiplər (xüsusi prinsiplər); 3) təkcə təlimə aid olan prinsiplər (spesifik prinsiplər) [1, s.137]. Təlim prinsiplərinin sistemini yaradarkən hər üç qrupun nəzərə alınması zəruriliyini vurğulayan B.Əhmədov M.Muradxanovdan fərqli olaraq təlimdə 13 spesifik prinsipin mövcudluğu fikrini irəli sürdü, onların hər biri haqqında ümumi təsəvvür yaratdı, onlar arasındakı əlaqənin təzahür formalarını araşdırdı, təlim prinsiplərinin sistem şəklində fəaliyyət göstərdiyini əsaslandırdı [1, s.137]. Elmi əsasa söykənməyən bəzi tələblərin prinsip səviyyəsinə qaldırılması B.Əhmədovu narahat edirdi. Ona görə də subyektiv fikirlər əsasında irəli sürülən, hərc-mərclik yaradan prinsip yaratma ideyasını tənqid edirdi.

Təlim prinsiplərini təlimin metodlarına istinadən, onun köməyi ilə məqsədə yiyələnməyən fəaliyyət üsulu kimi səciyyələndirən Y.Talıbov təlimi bütövlükdə əhatə edən, məqsədi, məzmunu, vasitələri, metodları, nəticəni özündə əks etdirən prinsipləri 6 yerə böldüyü halda [6, s.124], N.M.Kazımov mövcud ədəbiyyatdakı təlim prinsiplərini nə ad, nə də miqdar cəhətdən məqbul hesab etmir: təlim ünsürləri, qanunauyğunluqları və prinsipləri arasında əlaqəni açmağa çalışır, təlimin 13 prinsipini irəli sürür [2, s.123-141]. Nəzəriyyə və təcrübədə özünü doğruldan prinsiplərlə yanaşı, yeni prinsiplərdən (təlimdə əməkdaşlıq prinsipi; təlimdə düzünə və əksinə əlaqənin birliyi prinsipi; təlimin təhsilverici prinsipi və b.) bəhs edir və onları səciyyələndirir.

Təlim prinsiplərinin sayı bu günə kimi pedaqogikada dəqiqləşdirilməmişdir. Təlimin qanunauyğunluqlarından irəli gələn, onun məzmununa, üsullarına, təşkili formalarına təsir göstərən, müəllim və şagirdlərin birgə fəaliyyətini səmərəli qurmağa imkan verən didaktik ideyaların – təlim prinsiplərinin dəqiqləşdirilməsinə ciddi ehtiyac var. Tədqiqatçılar öz müəllif yozumları ilə təlim prinsiplərinin sayını artırmağa çalışmamalıdırlar. Təlim prinsiplərinin məzmunu və mahiyyəti onun sayında yox, vahid təlim və tərbiyə funksiyasını yerinə yetirməsindədir.

Təlimin prinsiplərinin təsnifində, sistemləşdirilməsində və ifadəsindəki müxtəlifliyin başlıca səbəbi, hər şeydən əvvəl, təlim prinsiplərinin əsasında duran müvafiq qanunauyğunluqların tam öyrənilməməsi ilə bağlıdır.

***İşin elmi nəticəsi.*** Təhsilin məzmununun müəyyənləşdirilməsi, elmi cəhətdən əsaslandırılması pedaqoji elmin metodoloji problemlərindəndir. Məhz təhsilin məzmunu bütün məktəb həyatının əsasını təşkil edir. Elə buna görədir ki, təhsilin məzmununu ehtiva edən tədris planlarının, proqramlarının, dərsliklərin yeni "modelləri"nin yaradılması məktəbi yenidənqurmanın, təhsilin məzmununu təkmilləşdirməyin vacib şərti hesab olunur. Tədqiq etdiyimiz mərhələdə ümumi təhsilin məzmunu islahat və modernləşdirmənin çətin və ziddiyyətli yolunu seçmişdir.

***Tədqiqatın elmi yeniliyi*** ilk növbədə bununla bağlıdır ki, 100 illik dövrdə pedaqogika elminin inkişaf tarixini araşdırmaq, inkişaf xüsusiyyətlərini və meyillərini müəyyənləşdirmək, onu elmi-nəzəri təhlildən keçirmək çox mürəkkəb işdir və ciddi araşdırma tələb edir. Bu tədqiqatın ilk təşəbbüs olması məsuliyyət hissini daha da artırır.

***İşin tətbiqi əhəmiyyəti.*** 1) Tədqiqatın materiallarından pedaqoji universitetlərdə pedaqoji fənlərin tədrisində; 2) "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi oçerkləri"nin, "Azərbaycan pedaqoji fikir antologiyası"nın və s. tərtibində; 3) bu problemlə bağlı gələcək tədqiqatların koordinasiya edilməsində; 4) pedaqogika və pedaqogika tarixi üzrə dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsi və yeniləşdirilməsində istifadə etmək faydalı olar.

## Ədəbiyyat


1. Əhmədov, B. Pedaqogikadan mübarizə konspektləri / B.Əhmədov, A.Rzayev, – Bakı: Maarif, – 1983, – 350 s.
2. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M.Kazımov, – Bakı: OKA Ofset, –2012, – 416 s.
3. Mehdizadə, M.M. Pedaqogika. I-II hissə / M. Mehdizadə, S.Xəlilov, D.Mustafayeva. – Bakı: APİ, –1941, – 146 s.
4. Mehdizadə, M.M. Pedaqogika. I hissə / M.Mehdizadə, M.Muradxanov, T.Əfəndiyev, İ.Vəlixanlı. – Bakı: APİ, –1958, –200 s.
5. Muradxanov, M. Pedaqogika / M.Muradxanov, Ə.Həşimov. – Bakı: Azərtədrisnəşr, –1964, – 504 s.


**I.C.Calilova**

**Problems of classification, systematization, and expression of learning principles in modern didactics**

***Summary***

This article examines the problems of classification, systematization, and expression of learning principles in modern didactics. It is established that the development of pedagogical science in Azerbaijan was directly dependent on the geographical boundaries of national socio-pedagogical thought and the influence of its relationships with global pedagogy and culture, and these relationships had a strong impact on its development.

Although the development of pedagogical science is conditioned by socio-political, economic, and cultural-spiritual conditions, it is also linked to the traditions of the formation and development of historical thought in our national pedagogical thought. These traditions, in their origin, on the one hand, go back to the first pedagogical ideas, rooted in the ancient customs and traditions of our people, their rites and rituals, entertainment and games, oral folklore, and the common Turkic way of thinking.

***Keywords:*** *didactics, learning, education, learning principles, didactic research*

**И.Дж.Джалилова**

**Проблемы классификации, системизации и выражения принципов обучения в современной дидактике**

***Резюме***

В статье рассматриваются проблемы классификации, систематизации и выражения принципов обучения в современной дидактике. Установлено, что развитие педагогической науки в Азербайджане напрямую зависело от географических границ национальной социально-педагогической мысли, влияния её взаимосвязей с мировой педагогикой и культурой, и эти связи оказали сильное влияние на её развитие.

Хотя развитие педагогической науки обусловлено социально-политическими, экономическими и культурно-духовными условиями, оно также связано с традициями формирования и развития исторической мысли в нашей национальной педагогической мысли. Эти традиции, по своему происхождению, с одной стороны, восходят к первым педагогическим представлениям, уходя корнями в древние обычаи и традиции нашего народа, его обрядам и ритуалам, развлечениям и играм, устному народному творчеству, общетюркскому образу мышления.

***Ключевые слова:*** *дидактика, обучение, образование, принципы обучения, дидактические исследования*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 20.10.2025*